**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YENİ MÜSTƏQİL TÜRK RESPUBLİKALARININ DÖVLƏT QURUCULUĞU PROSESİNDƏ MƏRKƏZİ VƏ YERLİ İDARƏETMƏ ORQANLARININ TƏŞKİLATLANMASI VƏ İNKİŞAFI

İxtisas: 5909.01-Dövlət İdarəçiliyi

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Saliha Gizem Ali qızı Önder**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Rəcəb Zakir oğlu Rəhimli**

Rəsmi opponentlər: siyasi elmlər doktoru
**Elnur Bəybala oğlu Hacalıyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Vasif Sultan oğlu İsmayılov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Sənubər Adışirin qızı Babaşova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, professor
**Aqiyə Həbib qızı Naxçıvanlı**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli dövlət, milli suverenlik və vətəndaşlıq prinsipləri ilə yanaşı, vahid dil, mədəniyyət, hüquq və maliyyə sistemlərinə əsaslanan dövlət modelidir.[1] Millətlər Qərbi Avropanın "daimi millətləri" (İngiltərə və Fransa), müstəmləkə millətçiliyindən törəyən "immiqrant millətlər" (ABŞ, Kanada, Avstraliya), imperiyaların dağılmasından sonra doğan Mərkəzi və Şərqi Avropanın "etnik əsaslı millətləri" (Almaniya), Afrika və Asiyanın "dövlət əsaslı millətlərinə" bölünə bilər.[2] Smithin dövlət əsaslı millətlər sırasında göstərdiyi Mərkəzi Asiya və Qafqazın Türk respublikalarının əsas xüsusiyyəti həm milli dövlət yaratmaları, həm də dövləti bərpa etmələridir.

Çar Rusiyası dövründə, Mərkəzi Asiya və Qafqazda milli maraqlarla uyğunlaşmayan daimi bir yerli idarəetmə quruluşu mövcuddur. Xalq Respublikaları dövründə idarəetmə strukturları müəyyən səviyyədə qurulmuşdur. Sovet dövründə isə, bu respublikalar federal bir dövlətin komponenti kimi var olmanın xüsusiyyətlərini qəbul etmişdilər. 1917-1922 illəri arasında müstəqil dövlətlər kimi mövcud olan bu respublikalar 1922-1936 illəri arasında regional idarəetmə statusuna keçmiş və 1936-1991 illəri arasında ittifaq respublikaları kimi Sovet İttifaqının bir hissəsi halına gəlmişdilər.[3] Bu proses zamanı, yerli idarəetmə strukturları mərkəzi idarəetmə orqanlarının müəyyən etdiyi siyasət ətrafında idarə edilmişdir.

Müstəqillikdən sonrakı dövrdə sovet dövrünün hakim ideologiyası olan Marksizm-Leninizmin hansı anlayışla əvəz olunacağı barədə qeyri-müəyyənlik yaranmış və həyata keçirilən ən diqqətəlayiq siyasət, sovet təsirindən təmizlənmiş bir millət kimliyi yaratmaq olmuşdur. Başqa sözlə Marksist-Leninist çərçivədə formalaşmış millət

---

[1]Abbasbəyli, A.N. Qloballaşan dünyada milli dövlət. / A.N.Abbasbəyli, N.S.Məmmədzadə - Bakı: Elm və təhsil, - 2015. - 228 s.

[2]Smith, A.D. State and Nation in the Third World: the Western state and African nationalism / A.D.Smith. - Britain: A Member of the Harwester Press Group, - 1983. - 171 p.

[3]Aslanov, E. Azerbaycan'da Kamu Yönetimi Reformu: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / - Ankara, 2007. - 362 s.

kimliyi, sovet hakimiyyətindən əvvəlki dövrün sosial aidiyyətlərinə əsaslanan millət kimliyi ilə əvəz edilmişdir. Müstəqillikdən sonrakı dövrdə Mərkəzi Asiya və Qafqaz respublikalarında üzə çıxan milli kimliyin formalaşması prosesi bir neçə islahatla həyata keçirilmişdir. Respublikaların hər birində iqtisadi, siyasi, mədəni, sosial və beynəlxalq müstəvidə baş verən proses müxtəlif ölçülərdə müşahidə olunmuşdur.

Yeni müstəqil Türk respublikalarının yerləşdikləri regiondakı bütün ölkələri vahid dam altında birləşdirəcək bir təşkilatın mövcudluğu da milli dövlət quruculuğuna mühüm töhfələr verə bilər. İqtisadi, diplomatik və mədəni sahələrdə əməkdaşlığı təşviq etmək, çoxtərəfli əlaqələr şəbəkəsini inkişaf etdirmək məqsədi ilə 1992-ci ildə başlanmış və 2010-cu ilə qədər davam edən Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Görüşləri, sonradan Türk Dövlətləri Təşkilatının formalaşmasının ilkin mərhələsi olmuşdur. 2009-cu ildə Naxçıvan Müqaviləsi ilə yaradılmış və 2010-cu ildə İstanbul Zirvə Görüşü ilə rəsmən müəyyənləşdirilmiş Türk Keneşi/Konsəyi 12 noyabr 2021-ci il tarixində İstanbulda keçirilən səkkizinci zirvəsində Türk Dövlətləri Təşkilatı adlandırılmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə üzv ölkə, Türkmənistan və Macarıstan isə təşkilatda müşahidəçi ölkə statusuna malikdir.

Dissertasiya işinin mövzusunda qarşılıqlı maraq oyandıran və aktuallıq kəsb edən amillərə aşağıdakıları aid etmək olar:

-Sovet İttifaqı dövründə Moskvanın vahid sovet xalqı yaratmaq siyasətini yerinə yetirmək məqsədilə Sovet İttifaqındakı millətlər və respublikalar arasında müstəqillik meyllərini azaltmaq və vahid sovet xalqı yaratmaq üçün müxtəlif inteqrasiya üsullarını həyata keçirməsinin təsirləri bu gün də davam edir.

-Türk respublikaları, Sovet dövründən miras qalan iyerarxik və mərkəziyyətçi strukturları, milli maraqları nəzərə alan strukturlarla əvəz etmək məqsədi daşımışlardır. Lakin bu çevrilmənin uğurla baş verməsi, geniş miqyaslı islahatların həyata keçirilməsi ilə yanaşı, islahatların cəmiyyətdə kökləşməsini də tələb etmişdir.

-Müstəqillik qazanan bu ölkələr öz iqtisadi strukturlarında, dövlət və bələdiyyə idarəçiliyində müxtəlif siyasətləri yerinə yetirərkən, qanunun aliliyi, demokratiya və insan haqları kimi müasir dövlət

dəyərlərinə əsaslanan dövlət modeli yaratmaq üçün də addımlar atmışlardır. Bu addımlar hər bir ölkənin özünəməxsus şəraiti və ehtiyacları əsasına uyğun formalaşmışdır.

-Yeni müstəqil Türk respublikaları dövlət və bələdiyyə idarəçiliyində müxtəlif siyasətləri yerinə yetirərkən, dövlətlərin ərazi quruluşunun öyrənilməsi əhəmiyyət kəsb edir. Yerlərdə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları inzibati-siyasi mövqənin mövzusunu təşkil edir.

-İcra hakimiyyəti ierarxiyalıq, fəaliyyətdə universal tətbiq və nizamlılıq kimi xüsusiyyətlərə malikdir və bu hər vaxt aktuallığını qoruyur. Hər bir ölkədə yerli özünüidarəetmə orqanlarının təşkilatlanması isə qərarverici, icraedici və digər orqanların yaradılması ilə doğrudan bağlıdır.

-Regional və etnik münaqişələr, millətüstü və submilli kimliklər müstəqil Türk respublikalarının milli dövlət quruculuğu prosesinə təsir göstərməklə yanaşı, inzibati ərazi bölgüsünün sərhədlərini dəyişməyə də səbəb ola bilər.

-Türk dünyasında inteqrasiya səylərinin bütün tərəflərin maraqlarını nəzərə alan mərhələyə çatması üçün tarix, dil və kimlik təməlləri üzərində qurulan təşəbbüslərin möhkəm vəziyyətlə irəliləməsi vacibdir. Bu gün regional inteqrasiya səylərinin nümunələrindən biri Türk Dövlətləri Təşkilatıdır.

Yuxarıda qeyd edilənlər Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın sovet sonrası dövrdə milli dövlət quruculuğu prosesində mərkəzi və yerli idarəetmə orqanlarının təşkilati inkişaflarının araşdırılmasını, hər ölkənin idarəetmə orqanları arasındakı qarşılıqlı münasibətlərin təyin edilməsini və bu strukturların müqayisəli təhlilini elmi cəhətdən aktual edir.

Dissertasiya mövzusunun yeni müstəqil Türk respublikalarındakı mərkəzi və yerli idarəetmə orqanlarının təşkilatlanması və inkişafı ilə bağlı olması inzibati strukturların tarixinin öyrənilməsini zəruri etmişdir. Bu da sovet dövrünün mərkəzi və yerli idarəetmə sistemlərinin təhlilini vacib hala gətirmişdir. Bu səbəbdən dissertasiyada əvvəlcə SSRİ-nin son dövrlərindəki iqtisadi və sosial vəziyyəti, mərkəzi və yerli idarəetmə sistemləri araşdırılmış, sonra isə Türk respublikalarının müstəqillik əldə etdikdən sonra milli dövlət

quruculuğu prosesində həyata keçirdikləri islahatlar kontekstində prezident institutu, nazirlər kabineti, yerlərdə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının təşkilati strukturları müəyyən edilmişdir.

Yeni müstəqil Türk respublikalarının milli dövlətlərinin quruculuğu barədə sosial-iqtisadi və siyasi-inzibati dəyişikliklərlə bağlı araşdırmalar çərçivəsində A.N.Abbasbəyli və N.S.Məmmədzadənin "Qloballaşan dünyada milli dövlət" adlı kitabı qloballaşma haqqında ümumi məlumat verməklə yanaşı qloballaşmanın ümumdünya təsisatlarını və təhdidlərini də izah etmişdir. H.Alkanın "Türk cumhuriyetlerinde siyasal kurumsallaşma süreci" adı ilə nəşr olunan məqaləsində SSRİ sonrası rejimlər haqqında əsas anlayışlar təsbit edilmişdir. E.Kurubaşın "SSCB sonrası Türk cumhuriyetlerinde yeni uluslaşma süreçleri üzerine bir değerlendirme" adlı məqaləsi də yeni Türk respublikalarında milli dövlət quruculuğunda sovet irsinin təsirlərini təsbit etmişdir.[4]

Sovet sonrası dövrdə milli dövlət quruculuğu və idarəetmə sistemindəki dəyişiklikləri təkcə bir ölkə üzərində cəmləşib təhlil edən tədqiqatlar da mövcuddur. R.Rəhimlinin 2023-cü ildə nəşr etdiyi «Azerbaycan'da devlet yönetiminin yeniden yapılanması ve kamu personel rejimi" adlı məqalədə Azərbaycanda dövlət idarəçiliyinin inkişafı barədə dövlət kadrları rejimi müzakirə olunmuşdur. M.Həsənov "Azerbaycan Cumhuriyeti'nde devletin yeniden yapılandırılması ve yerel yönetimlerin güçlendirilmesi çabaları" adlı məqaləsində Azərbaycan dövlət idarəçiliyini həm müstəqillikdən əvvəl həm də sonraki dövrlər çərçivəsində təhlil etmişdir.[5]

---

[4]Abbasbəyli, A.N. Qloballaşan dünyada milli dövlət. / A.N.Abbasbəyli, N.S.Məmmədzadə - Bakı: Elm və təhsil, - 2015. - 228 s. ; Alkan, H. Türk Cumhuriyetlerinde Siyasal Kurumsallaşma Süreci: Geçen Yirmi Yılın Bir Bilançosu // - Ankara: Bilig, - 2012. № 61, - s. 1-30. ; Kurubaş, E. SSCB Sonrası Türk Cumhuriyetlerinde Yeni Uluslaşma Süreçleri Üzerine Bir Değerlendirme // - Türkiye: Uluslararası Hukuk ve Politika, - 2006. 2, № 5, - s. 112-133.

[5]Rehimli, R. Azerbaycan'da Devlet Yönetiminin Yeniden Yapılanması ve Kamu Personel Rejimi // - Türkiye: Uluslararası Yönetim Akademisi Dergisi, - 2023. 6, № 3, - s. 593-609.; Hasanoğlu, M. Azerbaycan Cumhuriyeti'nde Devletin Yeniden Yapılandırılması ve Yerel Yönetimlerin Güçlendirilmesi Çabaları // - Ankara: Sayıştay Dergisi, - 2008. № 69, - s. 73-90.

A.Ibrayeva və T.Nazhinanın “Public sector reforms in Kazakhstan” adlı kitab bölməsi prezidentlik, yerlərdə icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarıyla bağlı islahatları təyin etmişdir. Ş.Zavalsız və H.Ateşin “Bağımsızlık sonrası orta asyada kamu yönetimi: Kazakistan örneğinde yapı ve reformlar” adlı məqaləsində sovet dövründə və müstəqillikdən sonra Qazaxıstan dövlət idarəçiliyi, mərkəzi-yerli idarəetmə orqanları barədə müzakirə aparılmışdır.[6]

M.Baimyrzaeva “Kyrgyzstan's public sector reforms: 1991–2010” adlanan məqaləsində formal hüquqi tədbirlərdə dəyişikliklərinin həyata keçirilməyini iddia etmiş, islahatların mənfi yan təsirlərini təsbit etmişdir. S.Liebert və M.Tiulegenov “Public administration in Kyrgyzstan” adlı məqalələrində dövlət idarəçiliyində yaranan problemləri, idarəetmənin sosial aspektlərini müzakirə etmişdilər.[7]

M.Fumagallinin “Etnisite, devlet yapılanması ve dış politika: Özbekistan ve ülke dışındaki özbekler” adlı məqaləsində müstəqillik dövründə dövlət quruluşu və xarici siyasət, millət olmağın coğrafi təməllərə söykəndiyi tezis vasitəsilə müzakirə edilir. Ç.Balım və Y.E.Gürbüzün “O'zbekiston Respublikasi: özbek modeli” adlı kitab bölməsində dövlət quruculuğu və siyasi həyat barədə məlumatlar verilmişdir.[8]

H.Alkanın “Türkmenistan’da siyasal rejimin geleceği: iç ve dış dinamikler açısından bir değerlendirme” adlı məqaləsində sosial-iqtisadi, institusional, beynəlxalq dinamikalar, elitalararası siyasi mübarizələrə diqqət yetirilmişdir. E.Yıldırımın “Türkmenistan:

---

[6]Ibrayeva, A.R. Public sector reforms in Kazakhstan / A.R.Ibrayeva, T.Nezhina // Public administration in post-communist countries, - Washington: - 2013. - p. 43-68.; Zavalsız, Ş. Bağımsızlık Sonrası Orta Asya’da Kamu Yönetimi: Kazakistan Örneğinde Yapı ve Reformlar / Ş. Zavalsız, H.Ateş // Türk Dünyası İncelemeleri Dergisi, - İzmir: - 2022. 22, № 2, - s. 515-547.

[7]Baimyrzaeva, M. Kyrgyzstan's public sector reforms: 1991–2010 // - United Kingdom: International Journal of Public Administration, - 2011. 34, № 9, - p. 555-566.; Liebert, S. Public administration in Kyrgyzstan / S.Liebert, M.Tiulegenov // Public Administration in Post-Communist Countries, - London: - 2013. - p. 69-102.

[8] Fumagalli, M. Etnisite, Devlet Yapılanması ve Dış Politika: Özbekistan ve ‘Ülke Dışındaki Özbekler’ // - Türkiye: Orta Asya ve Kafkasya Araştırmaları, - 2007. 2, № 4, - s. 203-224.; Balım, Ç. O'zbekiston Respublikasi:'Özbek Modeli' / Ç.Balım, Y.E.Gürbüz // Bağımsızlıklarının Yirminci Yılında Orta Asya Cumhuriyetleri, - Ankara: - 2012. - s. 221-311.

aşiretten ulusa" adlı kitab bölməsində dövlət quruculuğu və siyasi həyat izah edilmişdir.[9]

Yerli özünüidarəetmə orqanlarının strukturu və inkişafına əsaslanan əsərlər nümunəsində R.Rəhimlinin 2011-ci ildə yazdığı "Azerbaycan devlet personel yönetimi" adlı kitabda konstitusiya quruluşu, mərkəzi və yerli idarəetmə orqanları haqqında məlumat verilir. M. Həsənovun 2019 tarixli "Kamu yönetiminin değişimi ve Azerbaycan yerel yönetimler sistemi üzerindeki etkisi" adlı məqaləsində müstəqil Azərbaycan Respublikasında dövlət strukturu və dövlət idarəçiliyi müzakirə edilmişdir.[10]

M.Makhmutovanın "Local government in Kazakhstan" adlanan kitab bölməsində yerli idarəetmənin funksional strukturu, dövlət idarəetməsi ilə yerli özünüidarəetmə orqanları arasında əlaqələr təhlil edilmişdir. A.Uçar və U.Çağatay isə "Kazakistan'da yerel yönetimler" adlı kitab bölmələrində yerli özünüidarəetmə orqanlarının funksional strukturunu və huquqi əsaslarını müzakirə etmişlərdir.[11]

D.Aseinov və S.Najimudinovanın "Kırgızistan'da yerel yönetimler" adlı kitab bölmələrində Qırğızıstanın regional və inzibati quruluşu kimi mövzular yer almışdır. A.Narmambetova və Ç.Akmanın "Kırgızistan cumhuriyetinde yerel yönetimler" adlanan məqalələrində Qırğızıstandakı yerli idarəetmələrin icra orqanları müzakirə edilmişdir.[12]

---

[9]Alkan, H. Türkmenistan'da siyasal rejimin geleceği: İç ve dış dinamikler açısından bir değerlendirme // - Erzurum: Orta Asya ve Kafkasya Araştırmaları, - 2006. № 02, - s. 1-26.; Yıldırım, E. Türkmenistan: Aşiretten Ulusa // - Ankara: Bağımsızlıklarının Yirminci Yılında Orta Asya Cumhuriyetleri, - 2012. - s. 397-481.

[10]Rehimli, R. Azerbaycan Devlet Personel Yönetimi / R.Rehimli. - Ankara: Kültür Ajans Yayınları, - 2011. - 256 s.; Hasanoğlu, M. Kamu Yönetiminin Değişimi ve Azerbaycan Yerel Yönetimler Sistemi Üzerindeki Etkisi // - Türkiye: Uluslararası Yönetim Akademisi Dergisi, - 2019. 2, № 1, - s. 111-133.

[11] Makhmutova, M. Local Government in Kazakhstan // - Hungary: Developing New Rules in the Old Environment, - 2001. - p. 403-468.; Uçar, A. Kazakistan'da yerel yönetimler / A.Uçar, U.Çağatay // Türk Dünyasında Yerel Yönetimler, - İstanbul: - 2013. - s. 99-118.

[12] Aseinov, D. Kırgızistan'da Yerel Yönetimler / D.Aseinov, S.Najimudinova // Kırgızistan Tarih Toplum Ekonomi Siyaset, - Bişkek: - 2017. - s. 225-245.; Narmambetova, A. Kırgızistan Cumhuriyetinde Yerel Yönetimler /

R.Urinboyevin “Local government in Uzbekistan” adlı məqaləsində yerli idarəetmələrin daxili strukturu, mərkəzi və yerli idarəetmə orqanları arasındakı münasibətlər təhlil edilmişdir. Ökmen və Şekerin “Özbekistan’da kamu yönetim sistemi ve yerel yönetimleri” adlanan kitap bölməsində Özbəkistan dövlət idarəçiliyi, yerli idarəetmə orqanlarının funksiyaları mövzuları təhlil edilmişdir.[13]

K.Özkulluk və G.Jorayevin “Türkmenistan'da yerel yönetim yapılanması” adlanan kitab bölməsində müstəqillik dövründə Türkmənistanda yerli idarəetmə birlikləri və strukturları təsbit edilmişdir.[14]

Türk Dövlətləri Təşkilatı da regional formada müstəqil dövlətlərin milli dövlət quruculuğuna təsir göstərmişdir. Bu barədə Akçapanın, Aydilekin, Mustofaevin, Baghırovun tədqiqatlarının və Türkiyə respublikasının nəşr etdiyi “21. yüzyılın parlayan yıldızı: Türk Devletleri Teşkilatı” araşdırmasının adını çəkmək olar.[15]

Yeni müstəqil Türk respublikalarının dövlət quruluğu prosesində mərkəzi və yerli idarəetmə orqanlarını müqayisə edən dissertasiya işi, hər ölkənin konstitusiyalarına, yerlərdə icra hakimiyyətləri və yerli özünüidarəetmə ilə bağlı qanunvericilik aktlarına əsaslanmışdır.

---

A.Narmambetova, Ç. Akman // - Türkiye: Avrasya Uluslararası Araştırmalar Dergisi, - 2018. 6, № 13, - s. 457-475.

[13] Urinboyev, R. Local Government in Uzbekistan // - Switzerland: Global Encyclopedia of Public Administration, Public Policy, and Governance, - 2018. - p. 1-8.; Ökmen, M. Özbekistan’da Kamu Yönetim Sistemi ve Yerel Yönetimleri / M.Ökmen, G.Şeker // Türk Dünyasında Yerel Yönetimler, - İstanbul, - 2013. - s. 153-178.

[14]Özkulluk, K. Türkmenistan'da Yerel Yönetim Yapılanması / K.Özkulluk, G.Jorayev // Türk Dünyasında Yerel Yönetimler, -İstanbul: - 2013. - s. 81-99.

[15]Akçapa, M. Türk Devletleri Teşkilatı’nın tarihsel gelişimi: Teşkilatın dünü, bugünü ve yarını // - Türkiye: Avrasya Uluslararası Araştırmalar Dergisi, - 2023. 11, № 34, - s. 473-491.; Aydilek, E. Türk devletleri teşkilatının siyasi ve ekonomik potansiyeli // - Türkiye: Uluslararası Yönetim Akademisi Dergisi, - 2022. 5, № 3, - s. 716-728.; Mustofaev, M. The organization of Turkic States: a new approach to global and regional challenges // - Ankara: Perceptions: Journal of International Affairs, - 2022. 27, № 1, - p. 105-120.; Baghırov, O. The organization of Turkic States’ economic potential and cooperation prospects among its members // - Ankara: Perceptions: Journal of International Affairs, - 2022. 27, № 1, - p. 53-73.; 21. Yüzyılın Parlayan Yıldızı: Türk Devletleri Teşkilatı / Ankara: Cumhurbaşkanlığı İletişim Başkanlığı Yayınları, - 2023. - 358 s.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti, yeni müstəqil Türk respublikalarının dövlət quruculuğu prosesində mərkəzi və yerli idarəetmə orqanlarının təşkilatlanması və inkişafıdır.

Tədqiqatın predmetini yeni müstəqil Türk respublikalarının milli dövlət ideologiyasının yaranma xüsusiyyətlərinin, idarəetmə sistemindəki deyişikliklərinin, mərkəzi və yerli idarəetmə orqanlarının təşkilati strukturlarının müqayisəsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqadın məqsədi yeni müstəqil Türk respublikalarının dövlət quruculuğu prosesində mərkəzi və yerli idarəetmə orqanlarının təşkilatlanması və inkişaf mərhələlərini tədqiq etmək, onların strukturlarını və qarşılıqlı münasibətlərini müqayisə etməkdir.

Tədqiqadın məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

-Yeni müstəqil Türk respublikalarında milli dövlət ideologiyasının yaranmasını və reallaşma xüsusiyyətlərini əsaslandırmaq;

-Regional və etnik münaqişələrin Türk respublikalarındakı milli dövlət quruculuğuna təsirlərini müəyyən etmək;

-Türk respublikalarındakı milli oyanış prosesini və buna bağlı idarəetmə sistemindəki dəyişiklikləri təsbit etmək;

-Müstəqillik dövründə Türk respublikalarındakı mərkəzi və yerli idarəetmə orqanlarının islahatlarını təhlil etmək;

-Müstəqil Türk respublikalarının konstitusiyalarına və qanunlarına əsaslanaraq prezident institutu, nazirlər kabineti, yerlərdə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının strukturlarını və bunların mərkəzdəki və yerlərdəki münasibətlərini təhlil etmək;

-Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın mərkəzi və yerli idarəetmə orqanlarının strukturlarını müqayisə etmək;

-Türk Dövlətləri Təşkilatının yeni müstəqil Türk respublikalarındakı milli dövlət quruculuğu prosesindəki dialoq və əməkdaşlıq səylərini tədqiq etmək.

**Tədqiqat metodları.** Təklif olunan tədqiqat keyfiyyət və müqayisəli metodologiya əsasında aparılmış, məzmun analizi ilə hadisələrin öyrənilməsi metodlarından istifadə edərək sözügedən mövzunu tədqiq etməyə çalışmışdır. Tədqiqatda istifadə olunan

materiallar rəsmi sənədlərdən, ilkin və ikinci dərəcəli mənbələrdən ibarətdir. Bu mövzunun tədqiqi üçün konstitusiyalar, qanunlar, fərman və sərəncamlar, akademik məqalələr, kitablar, kitab bölmələrindən istifadə olunmuşdur. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın prezident institutu, nazirlər kabineti, yerlərdə icra hakimiyyəti və yerli özününüidarəetmə orqanlarının təşkilati strukturları və inkişaf prosesləri müqayisəli şəkildə araşdırılmışdır. Dissertasiya işinin hər fəslində Türk respublikalarının ümumi və oxşar cəhətləri təqdim edildikdən sonra müvafiq olaraq hər bir respublikanın özünəməxsus xüsusiyyətləri izah olunmuşdur. Əlavələr bölməsində isə respublikaların mərkəzi-yerli idarəetmə orqanlarının müqayisəsini əks etdirən cədvəllər yaradılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar. -** Mərkəzi Asiya və Qafqaz ölkələrinin keçid strategiyası yeni dövlət idarəetmə modellərinin geniş vüsət aldığı, liberallaşma və qloballaşma siyasətlərinin artdığı bir dövrə təsadüf etdiyi üçün yumşaq uyğunlaşma siyasəti həyata keçirilə bilməmişdir.

-Milliləşdirmə prosesində əsas problem həm Rusiya ilə münasibətlərin davam etdirilməsinin tələb olunması, həm də keçmişin mənfi mirası və milli xüsusiyyətləri pozan Rus mədəniyyətinin təsirinin itirilməsinin tələb olunmasıdır.

-Mərkəzi Asiya və Qafqaz regionunda milli kimliklər münaqişə zonasına çevrilə bilər. Lakin bu vəziyyət təkcə milli kimliklərlə məhdudlaşmır. Yeni müstəqil Türk respublikalarında millətüstü və submilli kimliklərin səbəb olduğu qarşıdurmalar da əhəmiyyətlidir.

-İnzibati islahatlar hərtərəfli islahatlar prosesinə daxil olmaqla dövlətin rolları yenidən müəyyən edilmişdir. İslahatlar prosesində dövlət daxili dinamika ilə yanaşı xarici dinamika və çoxmillətli tərəfdaşların maraqları da rəhbər tutulmuşdur.

-Yerlərdə icra hakimiyyətləri Azərbaycanda icra hakimiyyəti başçısı tərəfindən respublika tabeli şəhər, rayon və şəhər rayonunda; Qazaxıstanda akim (icra hakimiyyəti başçısı) tərəfindən oblast (bölgə), respublika tabeli şəhər, oblast (bölgə) tabeli şəhərin rayonunda; Qırğızıstanda akim (icra hakimiyyəti başçısı) tərəfindən oblast (bölgə) və rayonlarda; Özbəkistanda hakim (icra hakimiyyəti başçısı) tərəfindən vilayət, tuman (rayon) və şəhərlərdə;

Türkmənistanda hakim (icra hakimiyyəti başçısı) tərəfindən vilayət, etrap (rayon) və şəhərlərdə vəzifələrini yerinə yetirirlər.

- Yeni müstəqil Türk respublikalarında mərkəzi və yerli idarəetmə orqanlarının təşkilatlanması prosesində Azərbaycan xalq deputatları sovetlərinin mövcudluğuna son qoyulmadan əvvəl icra hakimiyyətləri qurmağa başladığı üçün digər ölkələrdən fərqli təcrübəyə malik olduğu müşahidə olunur. Azərbaycandan fərqli olaraq digər ölkələrdə xalq deputatları sovetinə oxşar orqanlar Qazaxıstanda maslixat, Qırğızıstanda məşvərətçi kolegiya, Özbəkistanda xalq deputatları kengaşı və Türkmənistanda xalq maslahatları adlarıyla varlığını davam etdirir.

-Azərbaycanda yerli özünüidarəetmə, seçkilər yolu ilə formalaşdırılan bələdiyyələr tərəfindən şəhər, qəsəbə, kəndlərdə vəzifəsini yerinə yetirir. Qazaxıstanda rayon tabeli şəhər, kənd, qəsəbə, kənd dairəsi daxilində akimlər (icra hakimiyyəti başçısı) tərəfindən yerli özünüidarəetmə həyata keçirilir. Qırğızıstanda yerli özünüidarəetmə orqanları kənd və şəhər meriyaları adlanan bələdiyyələrdir. Özbəkistanda şəhər tipli qəsəbə, qışlaq, kənd və məhəllələrdə vətəndaşların yığıncaqları özünüidarəetmə orqanlarıdır. Türkmənistanda etrapdakı (rayondakı) şəhər, şəhər tipli qəsəbə və kənd dairəsində yerli özünüidarəetmə orqanı təşkil edilir.

-Türk Dövlətləri Təşkilatı milli dövlət quruculuğunun regional səviyyəyə çatdırılmasında mühüm yer tutur. Azərbaycanın, Qazaxıstanın və Türkmənistanın enerji və zəngin mineral sahəsində; Özbəkistanın və Qırğızıstanın isə insan kapitalı sahəsində ixtisaslaşması ilə yanaşı, Türkiyə və Macarıstan texnologiya və istehsal sənayesində seçilə bilər.

**Tədqiqatın elmi yeniliyi.** Mərkəzi Asiya və Qafqaz regionlarında yerləşən yeni müstəqil Türk respublikalarından Azərbaycandan başqa ölkələrin mərkəzi və yerli idarəetmə təşkilatları ilə bağlı Azərbaycan dilində yazılan araşdırmaların sayı kifayət qədər azdır. Bu dissertasiya işi Azərbaycanla birlikdə Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın milli dövlət quruculuğu prosesində prezident institutu, nazirlər kabineti, yerlərdə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarını əhatə etməklə yanaşı, bütün respublikaların mərkəzi və yerli idarəetmə orqanlarının strukturlarının

müqayisəsinə də ilk dəfə imkan yaratmışdır. Bu mənada dissertasiya işinin elmi yeniliyini aşağıdakı kimi xülasə etmək olar:

-Yeni müstəqil Türk respublikalarının milli dövlət ideologiyalarının formalaşma prosesinin fərqli modellər üzrə inkişaf etdiyi müqayisəli olaraq araşdırılmışdır;

-Yeni müstəqil Türk respublikalarında regional və etnik münaqişələrin, eləcə də millətüstü və submilli kimliklərin milli dövlət quruculuğundakı rollarına diqqət yetirilmişdir;

-Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın konstitusiyalarında prezidentlik institutunun təşkili və fəaliyyət mexanizmləri ilk dəfə müqayisəli şəkildə araşdırılmış və bu sahədəki əsas institusional fərqlər təhlil edilmişdir;

-Yeni müstəqil Türk respublikalarında Nazirlər Kabinetinin institusional strukturu və fəaliyyət prinsiplərinin müqayisəli təhlili ilk dəfə aparılaraq, respublikaların Nazirlər Kabineti ilə bağlı əsas fərqlər müəyyən edilmişdir;

-Yeni müstəqil Türk respublikalarında yerli icra hakimiyyətlərinin strukturları ilk dəfə müqayisəli şəkildə araşdırılmış və onların idarəetmə modellərindəki fərqli xüsusiyyətləri təsbit edilmişdir;

-Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın yerli özünüidarəetmə modelləri ilk dəfə olaraq müqayisəli şəkildə araşdırılmış və onların hüquqi, inzibati və institusional xüsusiyyətləri müəyyən edilmişdir;

-Yeni müstəqil Türk respublikalarının milli oyanış prosesində mərkəzi və yerli idarəetmə sistemindeki dəyişiklikler müqayisəli olaraq müəyyən edilmiş, bu sahədəki islahatlar üzrə qanunlar təhlil edilmişdir;

-Dissertasiya işinin əlavə bölməsində prezident institutu, nazirlər kabineti, yerlərdə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının müqayisəsini göstərən cədvəllər ilk dəfə yaradılmışdır;

-Türk Dövlətləri Təşkilatının zirvə görüşləri əsasında təşkilatın yeni müstəqil Türk respublikalarındakı milli dövlət quruculuğu prosesinə təsiri təsbit edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Yeni müstəqil Türk respublikalarından olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın mərkəzi və yerli idarəetmə

orqanlarının təşkilati strukturundan və inkişaf proseslərindən bəhs edən bu dissertasiyadan universitetlərin dövlət idarəçiliyi şöbəsində seçmə kurs, kitab və məqalə yazmaq üçün mənbə kimi istifadə edilə bilər.

Yeni müstəqil Türk respublikalarının mərkəzi və yerli idarəetmə orqanları haqqında ümumi məlumatların da yer aldığı bu dissertasiya, müqayisəli təhlili sayəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın prezident institutu, nazirlər kabineti, yerlərdə icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə bağlı müddəaları baxımından praktiki əhəmiyyət kəsb edir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin elmi məqalələrində öz əksini tapmışdır. Müəllif, dissertasiya işi ilə bağlı ölkə daxilində və xaricdə müxtəlif elmi konfrans və simpoziumlara iştirak etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin quruluşu girişdən, yeddi yarımfəsli əhatə edən üç fəsildən, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Giriş 31.044 işarə, 3 yarımfəsildən ibarət I fəsil 69.115 işarə, 2 yarımfəsildən ibarət II fəsil 70.971 işarə, 2 yarımfəsildən ibarət III fəsil 71.112 işarə, nəticə 12.021 işarə hacmindədir. Dissertasiya işi ümumilikdə 254.263 işarədən (əlavələr və ədəbiyyat siyahısı istisna edilməklə) ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası təhlil edilir, nəzəri-metodoloji məsələlərə aydınlıq gətirilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti açıq şəkildə göstərilir.

Dissertasiyanın I fəsli **"Sovet idarəetmə sisteminin dağılması və onun Türk respublikalarına təsiri"** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci fəslin **"Yeni müstəqil Türk respublikalarında milli dövlət ideologiyasının yaranması və reallaşma xüsusiyyətləri"** adlanan **1-ci yarımfəslində** Mərkəzi Asiya və Qafqaz bölgəsindəki Türk respublikalarının keçid dövrü təhlil olunur. Sovet dövründə bu respublikaların repressiv siyasi və iqtisadi sistemin təsiri altında olmaları, onların keçid prosesini daha da çətinləşdirmişdir. Sovet dövründə respublikaların öz mədəniyyətləri, Sovet ədəbiyyatı və Rus mədəniyyətinin hüdudlarından kənarda, nəzarətə alınması mümkün olan bir məzmunun əsasları üzərində formalaşmışdır.[16] Bu respublikalar müstəqillik əldə etdikdən sonra mərkəzləşdirilmiş iqtisadi modeldən bazar iqtisadiyyatına və federativ dövlət quruluşundan müstəqil milli dövlətə keçmişdilər.

SSRİ-nin dağılmasından sonra milliləşdirmə prosesi Rus mədəni təsirini zəiflətmək və milli xüsusiyyətləri qorumaq məqsədinə yönəlmişdir. Azərbaycan, ilk növbədə Azərbaycanlı kimliyinə diqqət yetirmiş, ümummilli lider Heydər Əliyev xarici siyasətdə balanslaşdırılmış bir strategiya izləməyi hədəfləmişdir. Qazaxıstan millət quruculuğu prosesində etnik kimlik və ya vətəndaşlıq əsasında seçim etməkdən yayınıb milli birlik yaratmaq yolunu seçmişdir. Qırğızıstan əhalisi arasında regional fərqləri azaltmağa və etnik qrupların kənarda qalmasının qarşısını almağa çalışmışdır. Özbəkistan millət anlayışını torpaq nöqteyi-nəzərindən müəyyən etsə də, etnik kimlikdən daha çox eyni vətəni birgə paylaşma ideyasına üstünlük verdiyini vurğulamışdır. Türkmənistanda ictimai quruluşda ənənəvi qəbilə quruluşu üstünlük təşkil edir və dövlət quruculuğu prosesi

---

[16] Önder, S.G. Medeni inkılap ve ulusal politika ikileminde sovyetler birliği ideolojisi // - Bakı: Bakı Universitetinin Xəbərləri Humanitar Elmlər, - 2023. № 2, - s. 214.

qəbilə fərqlərinin aradan qaldırılmasına istiqamətlənmişdir. Bu respublikalar milli dövlətin qurulması və kapitalist dövlət institutlarının yaradılması ilə yanaşı, müasir neoliberal islahatlara da yönəlmişdilər.

Birinci fəslin **"Regional və etnik münaqişələrin Türk respublikalarındakı milli dövlət quruculuğuna təsiri"** adlanan **2-ci yarımfəslində** Sovet İttifaqının 1980-ci illərin ortalarından etibarən dərin iqtisadi və siyasi böhranlarla üzləşdiyi izah olunur. Sovet İttifaqının zəifləməsi etnik münaqişələrin artmasına səbəb olmuş, mübahisələrin vaxtında həll edilməməsi nəticəsində silahlı qarşıdurmalar baş vermiş və millətçilik meylləri güclənmişdir. Bu respublikalar müstəqillikdən sonra milli kimliklərini yenidən formalaşdırmağa cəhd göstərmiş və bu proses bir sıra hallarda münaqişələrlə nəticələnmişdir.

Etnik problemlərin kökləri sovetdən əvvəlki dövrə qədər uzanır, lakin münaqişələr yalnız milli kimliklərlə məhdudlaşmır. Yeni müstəqil Türk respublikalarında həm millətüstü, həm də submilli kimliklərin yaratdığı qarşıdurmalar ciddi əhəmiyyət kəsb edir. Müstəqilliklərinin ilk illərində Türk respublikalarında siyasi transformasiyanı təmin edəcək formal institutların yetərincə qurulmaması nəticəsində ailə və qəbilə münasibətləri kimi qeyri-formal institutlar və submilli kimliklər siyasi quruluşa əhəmiyyətli təsir göstərmişdir. 1991-ci ildən sonra qəbilə mənsubiyyəti və regionalizmin adətən birbaşa əlaqəli və bir-birinə bağlı olduğu, milli bütövlük və inteqrasiya səylərinə meydan oxuya biləcəyi müşahidə olunur.

Birinci fəslin **"Yeni müstəqil Türk respublikalarında milli oyanış prosesi və idarəetmə sistemində dəyişikliklər"** adlanan **3-cü yarımfəslində** Mərkəzi Asiya və Qafqaz Türk respublikalarının 1991-ci ildən sonra ictimai idarəetmə strukturlarını milliləşdirməyə başladığı ifadə edilir. Bu proses, kommunist sistemdən ayrılaraq federativ dövlət quruluşlarının milli dövlətə dönüşümünü əhatə etmişdir. SSRİ-dən irsən qalan idarəetmə strukturları yeni institutlara çevrilmiş, məsələn, Kommunist Partiyası Katibliyi Prezidentlik institutuna, Nazirlər Soveti Baş nazirliyə, Ali Sovet parlamentə, rayon

partiya təşkilatları rayon icra hakimiyyətinə, şəhər, qəsəbə və kənd yerli xalq sovetləri isə yerli özünüidarəetmələrə çevrilmişdir.[17]

Sovet İttifaqında dövlət idarəetməsinin kommunist ideologiyası əsasında formalaşdırıldığı və partiya strukturlarına tabe olduğu vurğulanır. SSRİ-də sərt iyerarxik və nəzarətçi bir idarəetmə modeli tətbiq olunmuş, yerli idarəetmələr mərkəzi hakimiyyətin güclü nəzarəti altında təşkil edilmişdir. Sovet dövrü idarəetmə strukturları, Türk respublikalarında demokratik prosesləri və vətəndaş iştirakını məhdudlaşdırmışdır. Müstəqillik əldə olunduqdan sonra bu respublikalar islahatlar həyata keçirsələr də, Sovet dövründən irsən qalmış mərkəziyyətçi strukturlar islahatların tətbiqinə maneə törətmişdir. İdarəetmə sistemlərinin islahatı prosesində yaranan geriliyi bu ölkələrin Qərbi Avropa bazarlarına daha uzaq olmalarından, mərkəzi və Şərqi Avropa ölkələrindən və Baltikyanı respublikalarından daha uzun müddət mərkəzləşdirilmiş bir planlaşdırma sistemi altında qalmasından, keçmiş Sovet sisteminin həddindən artıq və sənayeləşmiş quruluşundan, Mərkəzi Asiya respublikaları və Qafqaz bölgəsinin dənizə çıxışının olmamasından irəli gəlir. Nəticə etibarilə, Qərb tərzi idarəetmə modelinə tam keçid və demokratik proseslərin təşkili üçün müəyyən bir müddətə ehtiyac olmuşdur.

Dissertasiyanın II fəsli **“Dövlət idarəçilik sisteminin islahatları kontekstində Türk respublikalarında mərkəzi və yerli idarəetmə orqanlarının inkişafı“** adlanır və iki yarımfəsildən ibarətdir. İkinci fəslin **“Müstəqillik dövründə Türk respublikalarının dövlət idarəçiliyi sisteminin islahatları”** adlanan **1-ci yarımfəslində** Sovet İttifaqının dağılmasından sonra müstəqillik əldə edən Türk respublikalarının idarəetmə strukturlarında genişmiqyaslı islahatlar həyata keçirdikləri, bu islahatlar vasitəsilə dövlət institutlarının formalaşdırılmasına başladıqları izah edilir. Sovet tipli dövlət idarəetmə strukturlarını rəqabətqabiliyyətli iqtisadi modellə əvəz etmək məqsədi daşınmışdır. Hər bir ölkənin ehtiyac və şəraitinə uyğun

[17]Akyıldız, F. SSCB sonrası dönemde Orta Asya ve Kafkasya Türk Cumhuriyetleri'nde devletin yeniden yapılandırılması: Neoliberal politikalara eleştirel bir yaklaşım : /siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / - Malatya, 2008. - 389 s.

olaraq müxtəlif yanaşmalar tətbiq edilsə də, ümumi məqsəd effektiv idarəetmə sisteminin qurulmasına istiqamətlənmişdir.

Azərbaycanda 1998-ci ildə Prezidentin imzaladığı fərmanla Dövlət Komissiyasının yaradılması, islahatların daha sistemli və strukturlaşmış şəkildə həyata keçirilməsinin başlanğıcı olmuşdur. Azərbaycan SSR-in dövlət idarəetmə sisteminin milli idarəetmə modelinə keçməsi müstəqil dövlətçiliyi gücləndirmək məqsədini daşımışdır. İslahatlar əsasən dövlət idarəetmə sisteminin səmərəliliyinin və hesabatlılığın təmin olunması ilə əlaqədar olmuş, bu da idarəetmənin müasir tələblərə cavab verən bir şəkildə inkişafına gətirib çıxarmışdır. Ölkənin gələcək inkişafını təmin edəcək strateji məqsədləri idarəetmənin daha da təkmilləşdirilməsini hədəfləmişdir.

Qazaxıstanda dövlət idarəetmə sisteminin qurulması dövründə əsas diqqət, Sovet mirasından ayrılaraq milli dövlətçilik institutlarının formalaşdırılmasına yönəlmişdir. Mövcud dövlət idarəetmə sisteminin modernləşdirilməsi və təkmilləşdirilməsi məqsədilə islahatlar həyata keçirilmişdir. İslahatlar idarəetmə strukturunun daha səmərəli və effektiv hala gətirilməsi üçün nəzərdə tutulmuş və dövlət idarəçiliyində çeviklik, şəffaflıq və vətəndaşların iştirakının artırılması məqsədini daşıyan mühüm addımlar olmuşdur.

Qırğızıstanın müstəqilliyinin ilk dövrü, iqtisadi və siyasi müxtəlifliyin təşviqinə yönəlmiş islahatların həyata keçirilməsi ilə əhəmiyyət kəsb edir. Yerli idarəetmə orqanlarının səlahiyyətləri yerli keneşlərə verilmişdir ki, bu da mərkəzləşdirilmiş idarəetmədən daha çox yerli iştirakçılığa əsaslanan bir yanaşmaya keçidin başlanğıcı olmuşdur. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Dünya Bankının dəstəyi ilə ölkədə idarəetmə sahəsində əhəmiyyətli islahatlar həyata keçirilmişdir. Bu islahatların bir nəticəsi olaraq, Bişkek şəhərinin merinin (bələdiyyə sədrinin) ilk dəfə şəhər əhalisi tərəfindən seçilməsi yerli demokratiyanın inkişafına mühüm töhfə vermişdir. Yerli idarəetmə və seçki sistemləri üzrə əlavə islahatlar aparılaraq, idarəetmənin daha da təkmilləşdirilməsi və yerli vətəndaş iştirakının artırılması məqsədi daşınmışdır.

Özbəkistanda vətəndaşların yerli idarəetmə proseslərinə daha fəal şəkildə cəlb edilməsi nəzərdə tutulmuşdur. İslahatlar yerli məclislərin yaradılması və idarəetmə strukturlarının daha da

möhkəmləndirilməsinə istiqamətlənmişdir. Eyni zamanda yerli icra hakimiyyətlərinin çevikliyini artırmaqla yanaşı, yerli icmaların ehtiyaclarına sürətli və effektiv cavab verilməsi üçün əsaslı imkanlar yaradılmışdır. Bu islahatların həyata keçirilməsi, yerli özünüidarəetmə institutlarının gücləndirilməsinə və nəticədə müasir idarəetmə sisteminin inkişafına müsbət təsir göstərmişdir.

Türkmənistanda yerli idarəetmə sisteminin inkişafı, qərb modelinin tətbiqi və demokratik prinsiplərin qəbul edilməsi ilə yanaşı, hüquqi tənzimləmələrin aparılması ilə müşayiət olunmuşdur. Yerli idarəetmə sisteminin müasirləşdirilməsi, yerli icmalara özünüidarəetmə imkanlarının verilməsi və onların ehtiyaclarına uyğun xidmətlərin təmin edilməsinə istiqamətlənmişdir. Nəticədə yerli idarəetmə orqanlarının səlahiyyətlərinin artırılması və onların fəaliyyətinin şəffaflığının təmin edilməsi məqsəd qoyulmuşdur.

İkinci fəslin **"Yeni müstəqil Türk respublikalarında mərkəzi və yerli idarəetmə orqanlarının təşkilati strukturu və qarşılıqlı münasibətləri"** adlanan **2-ci yarımfəslində** Mərkəzi Asiya və Qafqaz Türk respublikalarının müstəqilliklərinin ilk illərində yerli idarəetmə strukturlarının funksionallığının məhdud olduğu vurğulanmışdır. Bu respublikalarda yerli idarəetmə institutlarının zəifliyi, keçmiş Sovet sistemində rəhbər vəzifələrdə çalışmış şəxslərin yeni idarəetmə mexanizmlərində də mühüm mövqeləri tutması ilə də izah edilə bilər. Nəticədə nəzərdə tutulan islahatlar və institusional yeniliklərin həyata keçirilməsi ləngiyib, bu isə demokratikləşmə prosesinin əsas tələblərindən biri olan effektiv institusional quruluşun formalaşmasına maneə olmuşdur. Beləliklə yerli idarəetmə sisteminin inkişafı, keçmiş sovet irsinin təsirləri altında formalaşmış strukturların müasirləşdirilməsi ehtiyacını ortaya qoymuşdur.

Sovet dövründə mövcud olan "xalq deputatları sovetləri", sosialist ideologiyasının tələblərinə uyğun olaraq, işçi və kəndlilər tərəfindən seçilən nümayəndələrdən ibarət idi və bu qurumlar yerli idarəetmə sisteminin təməlini təşkil edirdi. Xüsusilə Azərbaycan istisna olmaqla, digər respublikalar müstəqillik dövrünün başlanğıcında sovet idarəetmə sisteminin izlərini saxlamışdır. Azərbaycanın isə 1991-ci il tarixində qəbul etdiyi fərmanla xalq deputatları sovetlərinin mövcudluğunu sona çatdıraraq, icra hakimiyyətlərini qurmağa

başladığı qeyd edilir.[18] Bu addım mərkəzi idarəetmə mexanizmlərinin gücləndirilməsi məqsədi daşımışdır, lakin digər respublikalar bu cür dəyişikliklər həyata keçirməmişdir. Bununla yanaşı müstəqilliyin ilk illərində bəzi respublikalar sovet dövründəki yerli idarəetmə anlayışlarını müəyyən dərəcədə qoruyub saxlamışdır. Məsələn, Qazaxıstanda "maslixat", Qırğızıstanda "keneş", Özbəkistanda "xalq deputatları kengaşı" və Türkmənistanda "geneş" adları altında fəaliyyət göstərən yerli idarəetmə qurumları, keçmiş sovet idarəetmə modelindəki xalq deputatları sovetlərinin davamı kimi qiymətləndirilə bilər. Bu tendensiyalar həmin ölkələrdə demokratikləşmə və institusional dəyişikliklərin yavaşlamasına gətirib çıxarmışdır.

Dissertasiyanın III fəsli **"Yeni müstəqil Türk respublikalarının milli dövlət quruculuğu prosesində mərkəzi və yerli idarəetmə orqanlarının funksional müqayisəsi"** adlanır və iki yarımfəsildən ibarətdir. Üçüncü fəslin **"Yeni müstəqil Türk respublikalarının mərkəzi-yerli idarəetmə orqanları qarşılıqlı səciyyəsi"** adlanan **1-ci yarımfəslində** yeni müstəqil Türk respublikalarının oxşar xüsusiyyətlərini üzə çıxarmaq və ölkələr arasında struktur fərqlərini müəyyən etmək məqsədilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın mərkəzi və yerli idarəetmə orqanları müqayisə edilir. Yeni müstəqil Türk respublikalarının konstitusiyalarında prezidentlik institutu ilə bağlı müddəalar müxtəlif xüsusiyyətlərə malikdir. Məsələn, Azərbaycandan fərqli olaraq, digər ölkələrin konstitusiyalarında prezident seçilmək üçün yaş həddi müəyyən edilmişdir.[19] Qazaxıstan, Qırğızıstan və Özbəkistan konstitusiyalarına əsasən, bir şəxs ardıcıl olaraq yalnız bir dəfə prezident seçilə bilər, lakin Azərbaycan və Türkmənistan konstitusiyalarında belə bir məhdudiyyət yoxdur. Eyni zamanda prezidentin səlahiyyət müddəti də fərqlilik göstərir: Qırğızıstanda

---

[18]Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // 18 oktyabr 1991-ci ildə qəbul edilmişdir. - Bakı: Fərman, - 1991.

[19] Конституция Республики Казахстан, - 1995. - 41. Кыргыз Республикасынын Конституциясы, - 2021.- 62. Конституция Республики Узбекистан, - 2023. - 106. Конституция Туркменистана, - 2008. - 68-70.

prezident altı illik müddətə, digər respublikalarda isə yeddi illik müddətə seçilir. Qazaxıstan və Qırğızıstan prezidentləri vəzifədə olduqları müddətdə siyasi partiyalara üzvlüklərini dayandırmaq məcburiyyətindədirlər. Lakin bu məcburiyyət Azərbaycan, Özbəkistan və Türkmənistan konstitusiyalarında tənzimlənmir.

Azərbaycan digər respublikalardan fərqli olaraq, vitse-prezidentlik institutu tətbiq etmişdir. Azərbaycan konstitusiyasına görə, prezidentin vəzifədən getdiyi və ya vəzifələrini icra edə bilmədiyi hallarda, səlahiyyətlər Birinci vitse-prezidentə keçir. Birinci vitse-prezident icra edə bilmədiyi halda səlahiyyətlər Birinci vitse-prezident statusu almış vitse-prezidentə, mümkün olmadıqda Baş nazirə, o da mümkün olmadıqda Milli Məclisin sədrinə həvalə edilir.[20] Digər ölkələrdə isə bu səlahiyyətlər fərqli şəkildə bölüşdürülür: Qazaxıstanda prezidentin səlahiyyətləri Parlament Senatının sədrinə, Qırğızıstanda Jogorku Kenesh sədrinə, Özbəkistanda Senatın sədrinə və Türkmənistanda Xalq Maslahatı sədrinə ötürülür.[21] Türkmənistanda prezident Nazirlər Kabinetinin sədri olduğu halda,[22] digər ölkələrdə Baş nazir institutu mövcuddur.

Yerli icra hakimiyyətlərinin strukturu da bu respublikalar arasında əhəmiyyətli dərəcədə fərqlənir. Yerli icra hakimiyyətləri Azərbaycanda icra hakimiyyəti başçısı tərəfindən respublika tabeli şəhər, rayon və şəhər rayonunda, Qazaxıstanda akim (icra hakimiyyəti başçısı) tərəfindən oblast (bölgə), respublika tabeli şəhər, oblast (bölgə) tabeli şəhərin rayonunda, Qırğızıstanda akim (icra hakimiyyəti başçısı) tərəfindən oblast (bölgə) və rayonlarda, Özbəkistanda hakim (icra hakimiyyəti başçısı) tərəfindən vilayət, tuman (rayon) və şəhərlərdə, Türkmənistanda hakim (icra hakimiyyəti başçısı) tərəfindən vilayət, etrap (rayon) və şəhərlərdə vəzifələrini yerinə yetirirlər.[23]

---

[20]Azərbaycan Respublikasının Konstitusiyası, - 2016. - 105.

[21]Конституция Республики Казахстан,-1995.-46-48. Кыргыз Республикасынын Конституциясы, - 2021. - 67-68. Конституция Республики Узбекистан, - 2023. - 112-113. Конституция Туркменистана, – 2008. - 76.

[22]Конституция Туркменистана, – 2008. - 91.

[23]Yerli icra hakimiyyətləri haqqında Əsasnamə.-Bakı,-2012.-2; О местном государственном управлении и самоуправлении в Республике Казахстан, - 2001.-1/4; Закон Кыргызской Республики О местной государственной

Azərbaycandan fərqli olaraq digər ölkələrdə xalq deputatları sovetinə oxşar orqanlar Qazaxıstanda maslixat, Qırğızıstanda məşvərətçi kolegiya, Özbəkistanda xalq deputatları kengaşı və Türkmənistanda xalq maslahatları adlarıyla varlığını davam etdirir. İcra hakimiyyəti başçısı vəzifəsini tutan şəxs eyni zamanda bu orqanların sədri vəzifəsini tuta bilməz. Qazaxıstan nümunəsində icra hakimiyyəti başçısı olan akimlərin təyinində digər ölkələrdəki kimi Prezident ve Nazirlər Kabineti tesdiqi ilə bir yerdə onlardan fərqli olaraq maslixatların da razılığı tələb olunur.[24]

Yerli özünüidarəetmə sistemi isə hər bir respublikada fərqli şəkildə tənzimlənir. Azərbaycanda seçkilər yolu ilə formalaşdırılan bələdiyyələr şəhər, qəsəbə, kəndlərdə vəzifəsini yerinə yetirir. Qazaxıstanda oblast (bölgə), rayon, şəhər, şəhər rayonu, kənd okruguna daxil olmayan qəsəbə və kənd daxilində akim (icra hakimiyyəti başçısı) tərəfindən həyata keçirilir. Qırğızıstanda yerli özünüidarəetmə nümayəndəliyi yerli keneşi (məclis), orqanları ayıl okmotu və şəhər meriyaları adlanan bələdiyyələrdir. Özbəkistanda şəhərçə (qəsəbə), qışlaq va ovullarda, şəhər, şəhərçə, qışlaq ve ovullardakı məhəllələrdə vətəndaşların yığıncaqları özünüidarəetmə orqanlarıdır. Türkmənistanda etrap (rayon), şəhərçə və genəşliklərdəki şəhərlərdə yerli özünüidarəetmə orqanı - genəş təşkil edilir.[25] Bu müxtəliflik respublikaların sovet idarəetmə ənənələrindən uzaqlaşaraq özünəməxsus dövlət quruculuğu modellərini formalaşdırmağa çalışdıqlarını göstərir.

Üçüncü fəslin **“Türk Dövlətləri Təşkilatının Türk respublikalarındakı milli dövlət quruculuğunda dialoq və əməkdaşlığı”** adlanan **2-ci yarımfəslində** Türk Dövlətləri

---

администрации и органах местного самоуправления,-2021.-11; Закон республики Узбекистан о государственной власти на местах,-1993.-2; Закон туркменистана о местных представительных органах государственной власти,-2011.-1.

[24]Конституция Республики Казахстан, - 1995. - 85-88.

[25]Azərbaycan Respublikasının Konstitusiyası,-2016.-142; О местном государственном управлении и самоуправлении в Республике Казахстан, – 2001.-2-1; Кыргыз Республикасынын Конституциясы,-2021.-111-113; Конституция Республики Узбекистан,-2023.-127; Закон Туркменистана О местном самоуправлении,-2022.-8.

Təşkilatının (TDT) yaranması, məqsədləri və inkişaf mərhələləri, Türk respublikalarındakı milli dövlət quruculuğunda dialoq və əməkdaşlığı izah olunur. TDT-nin "hökumətlərarası regional təşkilatlar" kateqoriyasına daxil olduğu,[26] 1992-ci ildən başlayan zirvə görüşləri ilə əsası qoyulduğu və 2009-cu ildə Naxçıvan Müqaviləsi ilə rəsmən yaradıldığı qeyd edilir. Təşkilatın əsas məqsədi üzv ölkələr arasında diplomatik, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı təşviq etməkdir. Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan təşkilatın üzvü, Macarıstan və Türkmənistan isə müşahidəçi ölkə statusuna malikdir.

Üzv ölkələrin iqtisadi və təbii resurs potensiallarını vurğulayaraq, Azərbaycanın qlobal enerji tədarükçüsü, Qazaxıstanın buğda və mineral istehsalçısı, Özbəkistanın qızıl və uran təchizatçısı olduğu bildirilir. Macarıstanın Avropa İttifaqına üzvlüyündən irəli gələn potensial üstünlükləri də qeyd olunur. Təşkilatın adının dəyişdirilməsi onun üzv ölkələrin birliyi və ümumi məqsədlər ətrafında toplanmasına verdiyi əhəmiyyətin göstəricisi kimi dəyərləndirilir. Bununla yanaşı, Rusiya və Çin kimi regional güclərin TDT-yə qarşı mənfi mövqeləri, Mərkəzi Asiya ölkələrinin sərhəd və əməkdaşlıq problemləri təşkilatın zəif tərəfləri kimi qeyd edilir.

**Nəticədə** tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış, onların əsasında nəzəri və praktiki xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür. Mərkəzi Asiya və Qafqaz ölkələrində dövlət idarəçiliyinin zəif inkişafının əsas səbəbləri arasında siyasi, iqtisadi və hüquqi problemlər mühüm yer tutsa da, ən əhəmiyyətli çətinlik inzibati sistemlə bağlı olmuşdur. İdarəetmə dəyişikliklərinin mərkəzində dövlətin rolunun dəqiq müəyyən edilməsi, tənzimləyici dövlətin yaradılması, yerliləşdirmə prinsiplərinin tətbiqi, eləcə də kapital və qeyri-hökumət təşkilatlarının idarəetmə proseslərinə cəlb edilməsi dayanır. Bu islahatlar, dövlət idarəçiliyində səmərəliliyin artırılmasını hədəfləyərək, dövlətin funksiyalarını daha balanslı şəkildə həyata keçirməsinə imkan yaratmışdır.

[26]Aydilek, E. Türk devletleri teşkilatının siyasi ve ekonomik potansiyeli // - Türkiye: Uluslararası Yönetim Akademisi Dergisi, - 2022. 5, № 3, - s. 718.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi işlərində öz əksini tapmışdır:**

1. Kolektif üretimin Azerbaycan'daki etno-dinsel temsilcileri: Malakanlar // 18. Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi, - Sakarya: Sakarya Üniversitesi, -12-14 Aralık, - 2020, - s. 457-462.
2. Orta Asya'nın uluslaştırılmasında korenizatsiya (yerlileştirme) politikalarının etkisi // IV. Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu, -Kıbrıs: Kıbrıs İlim Üniversitesi-Türklerin Dünyası Enstitüsü, - 17 Aralık, - 2020, - s. 461-466.
3. Yeni müstəqil Türk respublikalarının anklav-eksklav torpaqları // Doktorantların və genc tədqiqatçıların XXIV Respublika elmi konferansı, - Bakı: AzTU, - 23-14 noyabr, - 2021, - s. 200-201.
4. İdare kandilleri: siyasetnamelerin ışığında yönetim anlayışı // - Ankara: Adam Akademi Sosyal Bilimler Dergisi, - 2022. -12 № 2, - s. 465-495.
5. Özerk cumhuriyetlerin siyasal sistemlerinin karşılaştırılması Nahçıvan ve Karakalpakistan örnekleri // 20. Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi, - Bişkek: Kırgızistan-Türkiye Manas Üniversitesi, - 18-20 Ekim, - 2022, - s. 129-134.
6. Medeni inkılap ve ulusal politika ikileminde sovyetler birliği ideolojisi // - Bakı: Bakı Universitetinin Xəbərləri Humanitar Elmlər, - 2023. № 2, - s. 214-225.
7. Sovyetler birliğinin "bir etni-bir toprak" ilkesi çerçevesinde Türkistan halklarının kendi kaderini tayin hakkının mümkünlüğü // - Bakı: Tarix və onun problemləri, - 2023. № 1, - s. 195-200.
8. Şiddetin haritası: Türkistan coğrafyasında siyasi topraklar // - Bakı: Sosial tədqiqatlar, - 2023. № 1, - s. 205-213.
9. Toprak üzerinde örgütlenme: Azerbaycan örneği // - Bakı: Sivilizasiya Bakı Avrasiya Universiteti, - 2023. № 3, - s. 34-40.

Dissertasiyanın müdafiəsi "5" iyun 2025-ci il tarixində saat 11.00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "5" may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.05.2025
Kağızın formatı: A5
Həcm: 35.918
Tiraj: 100